# Qərbi sülhdən çox geopolitik marağı düşündürür

## "Bəzi Avropa ölkələri Aİ missiyası adından çıxış edərək Ermənistanda planlarını həyata keçirirlər"

Çoxillik Azərbaycan-Ermənistan münaqişəsində ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Fransanın 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı etdiyi riyakarlıqlar və sonrakı illərdə birbaşa sülh danışıqları prosesinə yersiz müdaxilə cəhdləri Azərbaycanın sərt müqaviməti ilə rastlaşdı. Münaqişədən öz geopolitik məqsədləri üçün istifadə edib, Cənubi Qafqazda geosiyasi mövqeyini möhkəmləndirməyə çalışan Fransanın birmənalı olaraq ikiüzlü siyasəti ifşa olundu.



Ermənistanı silahlandırıb yenidən müharibəyə təhrik etməklə Azərbaycana təzyiq edə biləcəyini düşünən rəsmi Paris nəinki "ofsayt"a düşdü, hətta meydandan kənarlaşdırıldı. Fransa Azərbaycan ilə Ermənistan arasında münaqişənin davam etməsində maraqlıdır. Elə bu səbəbdən də Yelisey sarayında oturanlar hesab edirlər ki, əgər Bakı ilə İrəvan arasında sülh müqaviləsi imzalanarsa, Fransanın regionda mövcudluğuna çox mənfi təsir göstərəcək. Bu səbəbdən də münaqişənin həll olunması Fransanın geosiyasi maraqlarına tamamilə ziddir.

Öz geopolitik maraqları naminə Fransa Cənubi Qafqazda sülh prosesinin qarşısında mövcud olan əngəlləri daha da artırmağa çalışır. Sülh prosesi üzrə Qafqaz masasına regiondan kənar beynəlxalq siyasi güclərin kobud müdaxiləsi situasiyanı qəlizləşdirir. Xüsusilə də Avropa Birliyi və Fransa Cənubi Qafqazda sülh prosesinin uğur qazana bilməməsi üçün bütün vasitələrə əl atırlar. Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bu qurumun Ermənistanda mülki missiyasının mandatının daha iki il müddətinə uzadılmasını təklif etmişdi. Mətbuatın yaydığı məlumata görə, artıq Avropa İttifaqının səfirləri Ermənistandakı müşahidə missiyasının iki il müddətinə uzadılmasını təsdiqləyiblər.

Bu qərara əsasən, avropalı müşahidəçilər daha iki il - 2027-ci il fevralın 19-dək Ermənistanın sərhədyanı rayonlarında qalacaqlar. Və belə vəziyyətdə regional sülh danışıqlarının yaxın vaxtlarda pozitiv nəticələrə yol aça biləcəyini düşünmək sadəlövhlük olardı.

İki ölkənin sərhədində üçüncü ölkənin qüvvələrinin yerləşdirilməsi narahatedici məsələdir. Ötən ilin sonlarında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu məsələyə münasibət bildirərək demişdir: "Bu missiyanın fəaliyyəti artıq başa çatmalıdır. Missiya həmin ərazilərə yerləşdirilən zaman Praqada Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının həmin dövrdəki prezidenti Şarl Mişel, Ermənistanın baş naziri Nikol Paşinyan iştirak edirdilər. Bu missiyanın qısamüddətli olacağı razılaşdırılmışdı. Amma göründüyü kimi, bu missiya davamlı xarakter alıb, hətta onun tərkibi, mandatının əhatə dairəsi də genişləndirilir".

Daha sonra Hikmət Hacıyev fikrini belə izah etmişdi: "Aİ missiyası regionda sülhün genişləndirilməsinə xidmət edən faktor deyil. Sülhün gücləndirilməsi Ermənistanla Azərbaycan arasındakı prosesdir. Üçüncü ölkənin sərhəddə olması iki ölkə arasında vəziyyətin gərginləşməsinə, Avropa İttifaqının da Cənubi Qafqazda təhlükəsizlik və hərbi faktor kimi ortaya çıxmasına səbəb olur. Bəzi Avropa ölkələri isə Aİ missiyası adından çıxış edərək Ermənistanda planlarını həyata keçirirlər".

Bu bir həqiqətdir ki, Cənubi Qafqazda geopolitik maraqları olan Qərb dövlətləri Avropa Birliyinin missiyanı Ermənistan ərazisində saxlamaqla bu dövlətin üzərindən Cənubi Qafqaza təsir edə biləcəklərini düşünürlər.

Aydın məsələdir ki, Avropa Birliyinin müşahidə missiyası təyinatı üzrə fəaliyyət göstərmir. Missiyanın tərkibinin əsasən Fransanın "təqaüdə çıxmış" sabiq jandarm qüvvələrinin təcrübəli veteranlarından ibarət olması faktı inkaredilməzdir. Yeni razılaşmaya əsasən, müşahidəçilərin tərkibi və sayı dəyişməz qalır - 165 xarici və 44 erməni üzv sərhədlərimizdə "müşahidə" aparmaqda davam edəcək.

Əslində, Aİ müşahidə missiyası adı ilə sərhədlərimizə yerləşdirilən qüvvələrin casus şəbəkəsi olaraq əsas işinin kəşfiyyat xarakterli materiallar toplayaraq region ölkələrinə qarşı fəaliyyət göstərdiyi heç kimdə şübhə doğurmur.

Öz siyasətini ikili standartlar üzərində quran Avropa İttifaqı ölkəmizlə razılaşmadan birtərəfli şəkildə missiyanın müddətini artırır. Onu da qeyd edək ki, sülh müqaviləsinin imzalanması üçün tələblərimizdən biri həm də Aİ-nın müşahidə missiyasının fəaliyyətinin dayandırılmasıdır. Görünən budur ki, nə Ermənistan, nə də bu dövlətin avropalı havadarları sülh müqaviləsinin imzalanmasını istəyirlər. Əksinə, buna ciddcəhdlə mane olmağa çalışırlar.

Azərbaycanın sülh müqaviləsini imzalamaq üçün Ermənistanın qarşısında qoyduğu əsas şərtlərdən biri hazırda oyundan kənar vəziyyətdə qalmış Minsk qrupunun ləğvi üçün onun ATƏT-ə müraciət etməsidir.

ATƏT-in Minsk qrupunu dirildə bilməyəcəyini anlayan Qərb dövlətləri Azərbaycana qarşı yeni təzyiq mexanizmi tapdıqlarını düşünürlər. Ölkəmizin razılığı olmadan israrla "Mülki müşahidə missiyası" adı ilə fəaliyyət göstərən uydurma bir quruma cidd-cəhdlə "can" verməyə çalışması isə Qərbin bəd niyyətindən xəbər verir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-31 yanvar (№21).- S.8.